USAID FROM THE AMERICAN PEOPLE

ცესკო საქართველოს საარჩევნო ადმინისტრაცია

IFES

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და სწავლების ცენტრი

# TƏLİMAT

## MƏHDUD İMKANLARA MALİK OLAN SEÇİCİLƏRİN SEÇKİLƏRDƏ MÜSTƏQİL İŞTİRAKINI TƏŞVİQ ETMƏK



Tbilisi, 2024-cü il

# Mündəricat


Giriş 2

Terminlərin izahı 3

Uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsi 4

Uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsini tələb etmə proseduru 6

MİM olan seçicilərin seçkilərində iştirak etmə proseduru 9

MİM olan seçicilərlə danışıq və davranış etikası 11

# Giriş

Məhdud imkanlara malik olan seçicilər üçün digər seçicilərlə seçkilərdə bərabər iştirakını təşviq etmək onların əsas hüquqlarının həyata keçirilməsidir.

Gürcüstanın bütün vətəndaşı 18 yaşından etibarən referendumda, dövlət, muxtar respublikası və bələdiyyə orqanların seçkilərində iştirak etmək hüququna malikdir. Seçicilərin iradəsini sərbəst ifadə etmək təmin olunur.

Gürcüstan qanunvericiliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) məhdud imkanlara malik olan şəxslərin hüquqlarının konvensiyasına uyğun olaraq, seçki administrasiyası, Seçki Sistemləri üzrə Beynəlxalq Fond (IFES) ilə birlikdə Gürcüstanda inkluziv seçki mühitinin yaradılmasına və inkişafına təşviq edir. İllər ərzində Mərkəzi Seçki Komissiyası (MSK) məhdud imkanlara malik olan seçicilərin (MİM seçicilər) seçkilərdə bərabər iştirakı üçün bir sıra mühüm işlər həyata keçirmişdir.

MİM olan şəxslərin seçkilərdə müstəqil iştirak etməsi üçün yeni xidmətlər yaradıldı və tətbiq edildi. Xüsusilə, MSK-nın rəsmi veb saytı zəif görən və ya görmə qabiliyyətindən məhrum olan şəxslər üçün mövcuddur; Jest dilində məlumat video çarxı hazırlanır; MSK-nın telefon / məlumat mərkəzində kar və eşitmə qabiliyyəti məhdud olan seçicilər seçki məsələləri barədə jest dilində məlumat ala bilərlər; MİM olan şəxslər üçün mövcud xidmətlər haqqında məlumat video çarxı hazırlanır; Dəstək alan şəxslər üçün asan oxuna bilən formatda seçkilərdə iştirak etmək üçün bələdçisi hazırlanmışdır və həmçinin kar şəxslər üçün jest dilində və görmə qabilliyyətində məhrum olan şəxslər üçün audio formatda əlçatandır. Seçki dövründə MİM olan seçicilərin işlə təmin olmaları həyata keçirilir. Seçki günü mövcuddur: Görmə qabiliyyətindən məhrum olan seçicilər üçün – seçki bülletenini doldurmaq üçün çərçivə/forma; Zəif görən seçici üçün - böyüdücü linza; Təkərli kürsüdən istifadə edən seçicilər üçün - səsvermə kabinələri; Kar, eşitmə qabiliyyətindən məhrum olan və görmə qabiliyyətindən məhrum olan seçicilər üçün - səsvermə günün prosedurlarını nümayiş etdirən poster, hansının ki, üzərinə quraşdırılmış QR oxuyucu məlumatı jest dilində və səs formatında əlçatan edir.

İllər ərzində həyata keçirilən bir sıra fəaliyyət göstərdi ki, seçkilərdə iştirak etmək üçün fiziki mühitin mövcudluğu ilə birlikdə, cəmiyyətin münasibəti və digərlərlə bərabər səviyyədə xidmətlərin göstərilməsi vacibdir. Məhz, yüksək məlumatlılıq əsas yaradır ki, seçki mühiti inklüziv olsun. Buna əsasən Mərkəzi Seçki Komissiyası (MSK) İHHŞ - Seçki Sistemlərinin İnkişafı, İslahatları və Təlim Mərkəzi (Təlim Mərkəzi) və Seçki Sistemləri üzrə Beynəlxalq Fond (IFES) ilə birlikdə təlim təlimatları hazırlamışdır. Təlimatın məqsədi dairə və məntəqə seçki komissiyalarının üzvlərinin MİM olan seçicilərlə danışıq etikasına, davranış normalarına riayət etmək və seçkilərdə müstəqil iştirakını təşviq etmək barədə maarifləndirməkdir.

# Terminlərin izahı

**Məhdud imkanlar** - fiziki, psixiki, intellektual və ya sensor pozğunluğu olan şəxs üçün fərdi inkişaf və özünü reallaşdırma üçün digərləri ilə bərabər imkanların olmaması, bu, fiziki mühitin, cəmiyyətin münasibətinin və digər amillərin birləşməsindən qaynaqlanır.

**Mədud imkanlara malik olan şəxs** – ağır fiziki, psixiki, intellektual və ya sensorlu pozğunluğu olan şəxs, hansı ki, müxtəlif maneələrlə qarşılıqlı əlaqəsi ictimai həyatda bu şəxsin başqaları ilə bərabər şəkildə tam və səmərəli iştirak etməsinə mane ola bilər.

**Fiziki pozğunluğu olan şəxs** – yuxarı əzələsi/əzələləri olmayan şəxs; təkərli kürsüdən/qoltuqağacından istifadə edən şəxs; mobillik məhdudiyyəti olan şəxs.

**Görmə qabiliyyətindən məhrum olan** - tam görmə məhdudiyyəti olan şəxs.

**Kar**- tam eşitmə məhdudiyyəti və ya tam eşitmə itkisi olan şəxs.

**Zəif eşidən** - eşitmə qabiliyyəti zəif olan insan.

**Zəif görən** - görmə qabiliyyəti zəif olan insan

**Dəstək alan şəxs** - müxtəlif maneələrlə qarşılıqlı əlaqəsi onun başqaları ilə bərabər şəraitdə ictimai həyatda tam və səmərəli iştirakına mane ola bilən ağır psixiki, əqli/intellektual pozuntuları olan şəxsdir. Bundan başqa, qeyd olunan maneələr lazımi məsləhət və kömək olmadan şəxsin öz iradəsini azad ifadə etməsini, məhkəmənin müəyyən etdiyi sahədə şüurlu və düşünülmüş seçim etməsini xeyli çətinləşdirir.

**Jest dili** – səslərin yerinə dodaqların hərəkəti, jestikulasiya və ya bədən plastikləri vasitəsi ilə hərfləri, anlayışları, sözləri ifadə etməkdir. Jest dili kar və ya eşitmə qabiliyyətindən məhrum olan şəxslərin istifadə edərək söhbət etdikləri jestləri qeyd edir. Bu vəziyyətdə jestlər sözlərin ekvivalentliyini (söz razılığı, anlayışlar)təqdim edir.

**Jest dilini bilən** – şəxs, jestikulasiya və əl hərəkətləri ilə sözləri ifadə edir və bu yolla kar və eşitmə qabiliyyəti məhrum olan şəxslərlə ünsiyyət qurur. .

| **Seçki administrasiyasının işçiləri məhdud imkanlara malik olan seçicilərlə söhbət edərkən hansı terminlərdən istifadə etməlidirlər?** | **Seçki administrasiyasının işçiləri məhdud imkanlara malik olan seçicilərlə söhbət edərkən hansı terminlərdən istifadə etməməlidirlər?** |
|---|---|
| Məhdud imkanlara malik olan şəxs | Əlil, qüsurlu, natamam, defektli, məhrum qabiliyyətli, invalid |
| Fiziki pozğunluğa malik olan şəxs | Təkərli kürsə zincirlənmiş, invalid |
| Dəstək alan şəxs | Əqli ləngiləmə, əgli geriliyi, fəaliyyət qabiliyyəti olmayan, psixiki cəhətdən xəstə, |
| Görmə qabiliyyətindən məhrum olan, zəif görən | Kor, çaşı, yaxın görən |
| Kar | Kar-lal |

# Uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsi

## UYĞUNLAŞDIRILMIŞ / ƏLÇATAN SEÇKI MƏNTƏQƏSI NƏ DEMƏKDIR?

Uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsi binanın xarici perimetrinin, həmçinin binaya girişin, daxili sahəsinin və seçki otağının əlçatanlığı deməkdir[1].

**Binanın xarici perimetri** – binaya qədər gediş yolunu, darvazayı və binaya giriş qapısını nəzərdə tutur.



**Darvaza** – kapı içəridən və ya hər iki tərəfə açılmalı, yaxud əlçatanlıq üçün tam açıq olmalıdır;

**Binaya giriş qapı** – binanın əsas giriş qapısı enli olmalıdır, içəridən və ya hər iki tərəfə açılmalıdır, qapıdan giriş ərəfəsinin hündürlüyü təkərli kürsü istifadəçisinin asanlıqla hərəkət edə biləcəyi dərəcədə olmalıdır;

**Bina əlçatandır əgər aşağıdakılar varsa:**

**Pandus-** binaya daxil olmaq üçün istifadə edilən "kiçik eniş" meylli düz bir səthdir. Pandus fərqli ola bilər: taxta, beton, metal və ya digər;





**Sadə uyğunlaşma** – binaya giriş üçün pilləkəndən istifadə edilməyib, binaya giriş sıfır səviyyədə yerləşir;

**Hərəkətli pandus** – dəmir və ya taxta konstruksiyadan ola bilər və müvəqqəti istifadə üçün nəzərdə tutulub.



1. Gürcüstan hökumətinin 28 yanvar 2016 -cı il tarixli 41 nömrəli qərarı ilə, "Bina Təhlükəsizliyi Qaydaları" haqqında texniki reqlament tənzimlənib; Lakin 4 dekabr 2020 -ci il tarixli 732 nömrəli qərar ilə, "Milli Əlçatanlıq Standartları" haqqında) texniki reqlament tənzimlənib).

**Məhəccər** – pilləkən və ya pandusun məhəccərinin tərkibi hamarlı, dairəvi formada olmalıdır (şəkil 5).





**Alternativ giriş** – alternativ uyğunlaşdırılmış / əlçatan girişi olan seçki məntəqəsində seçicilər üçün müvafiq yol nişanları asılmalıdır.

**Səsvermə otağı** – səsvermə otağı binanın birinci mərtəbəsində yerləşdirilməsi məsləhətlidir. Təkərli kürsüdən istifadə edən şəxs səsvermə otağında müstəqil hərəkat edə bilməlidir.

## SEÇKI MƏNTƏQƏSININ AYRILMASINA VƏ / VƏ YA UYĞUNLAŞDIRILMASINA GÖRƏ KIM MƏSULIYYƏT DAŞIYIR?

Seçki Məcəlləsinin 58-ci maddəsinin birinci və 11-ci bəndlərinə əsasən, dövlət hakimiyyətinin və bələdiyyə orqanları, müvafiq binaların mövcud olduğu təqdirdə, seçki məntəqəsi üçün və bütün seçicilər üçün əlçatan bir bina ayırmalıdırlar, lakin belə bir bina olmadığı təqdirdə, seçki məntəqəsi üçün ayrılmış bina, mümkün olduğu yerdə, onu təhvil verən orqan tərəfindən səsvermə gününə qədər bütün seçicilər üçün uyğunlaşdırılmış və əlçatan olmalıdır.

# Uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsini tələb etmə proseduru

## UYĞUNLAŞDIRILMIŞ SEÇKI MƏNTƏQƏSINI KIMIN TƏLƏB ETMƏK HÜQUQU VAR VƏ NECƏ?

Təkərli kürsüdən istifadə edən seçici 26 oktyabr 2024-cü il tarixli Gürcüstan parlamentinin seçkilərində müvafiq dairə seçki komissiyasının fəaliyyət göstərdiyi ərazidəki istənilən uyğunlaşdırılmış seçki məntəqəsində iştirak etmək hüququna malikdir və bunun üçün müvafiq dairə və ya məntəqə seçki komissiyasına səsvermə gününə ən geci 11 gün qalmış müraciət etməlidir.

## ƏGƏR TƏKƏRLI KÜRSÜDƏN ISTIFADƏ EDƏN SEÇICI SEÇKI MƏNTƏQƏSINI DƏYIŞDIRMƏK ÜÇÜN MÜRACIƏT EDƏRSƏ, DAIRƏ / MƏNTƏQƏ SEÇKI KOMISSIYASI TƏRƏFINDƏN HANSI PROSEDURLAR HƏYATA KEÇIRILMƏLIDIR?

Dairə/məntəqə seçki komissiyasının katibi qeydiyyat jurnalında seçicinin yazılı ərizəsini (bu ərizədə Gürcüstan vətəndaşının şəxsi nömrəsi göstərilməlidir) və ya telefon bildirişi ilə alınan şifahi ərizəsini (belə halda seçicinin şəxsi nömrəsi, telefon bildirişinin dəqiq vaxtı və müvafiq telefon nömrəsi göstərilməlidir) qeydiyyata alınır və imza ilə təsdiqləyir;

Seçicinin dairə seçki komissiyasına müraciət etməsi halında, müvafiq məntəqə seçki komissiyasına bu seçki məntəqəsinin seçicilər siyahısında qeydiyyata alınmış uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərin xüsusi siyahısına daxil edilməsi barədə bildirilir. Seçici tərəfindən məntəqə seçki komissiyasına müraciət edildiyi təqdirdə, məntəqə seçki komissiyası bu seçici haqqında məlumatı müvafiq dairə seçki komissiyasına səsvermə günündən 11-ci gündən gec olmayaraq təqdim edir.

Vahid seçicilər siyahısında seçicinin eyni dairə seçki komissiyanın fəaliyyət ərazisində olan uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi seçicilər siyahısına köçürülməsi göstərilir, həmçinin vahid seçicilər siyahısı və xüsusi seçicilər siyahısında, “faktiki vəziyyəti” sütununda “təkərlü kürsü istifadəçisidir” qeydi qeyd olunur, bu məntəqə seçki komissiyası sədrinin və katibinin imzaları ilə təsdiqlənir.

## KIMIN TƏKƏRLI KÜRSÜDƏN ISTIFADƏ EDƏN SEÇICILƏRIN UYĞUNLAŞDIRILMIŞ SEÇKI MƏNTƏQƏSINDƏ SƏSVERMƏ SORĞUSUNUN ƏSASLIĞINI YOXLAMAQ HÜQUQU VAR?

Məntəqə seçki komissiyası üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər təkərli kürsündən istifadə edən seçicilərin uyğunlaşdırılmış seçki məntəqəsində səs vermək tələbinin əsaslığını yoxlamaq və bu seçicilər barəsində səsvermə gününə qədər ən geci 10-cu günü müvafiq xüsusi siyahıya daxil edilməsi məsələsini məntəqə seçki komissiyası qarşısında qaldırmaq hüququna malikdirlər. Qeyd olunan məsələ ilə bağlı qərarı məntəqə seçki komissiyası tərəfindən verilən məlumata əsasən səsvermə gününə qədər ən geci 10-cu günü dairə seçki komissiyası qəbul edilir.

## UYĞUNLAŞDIRILMIŞ SEÇKI MƏNTƏQƏSININ XÜSUSI SEÇICI SIYAHISINA SEÇICI HAQQINDA MƏLUMATLARININ DAXIL EDILMƏSI HANSI QAYDA ILƏ OLUR?

Dairə seçki komissiyası məntəqə seçki komissiyalarından alınan, həmçinin öz məlumatları əsasında səsvermə gününə qədər ən geci 10-cu günü (saat 18:00-dan sonra) müəyyən edir və sərəncamla uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərin xüsusi siyahısını təsdiqləyir və dərhal müvafiq məntəqə seçki komissiyasına həmin komissiyanın sədri və katib tərəfindən imzalanmış ümumi məlumat versiyasını, lakin səsverməyə qədər 12 saatdan gec olmayaraq - seçki komissiyası üçün nəzərdə tutulmuş versiyasını verir.

Uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərin xüsusi siyahısına seçicilər haqqında seçicilərin vahid siyahısında olan eyni məlumatlar daxil edilir və əlavə olaraq bu seçicinin seçicilərin vahid siyahısında olan sıra nömrəsi göstərilir.

Uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərin xüsusi siyahısının dairə seçki komissiyası tərəfindən məntəqə seçki komissiyasına təqdim olunan ictimai məlumat üçün nəzərdə tutulmuş versiyası (fotoşəkil olmadan) dərhal məntəqə seçki komissiyasının (səsvermə) binasında nəzərə çarpan yerdən asılmalıdır.

## SƏSVERMƏ OTAĞININ YERLƏŞMƏSI HARADA ARZU EDILIR?

Səsvermə otağının binanın birinci mərtəbəsində yerləşməsi arzu edilir, burada məhdud imkanlara malik olan şəxslər binanın içəri sahəsində (giriş, haradaki, pilləkən / pilləkənlər yoxdur) müstəqil hərəkət edə biləcəklər.

**Səsvermə otağında MİM olan seçicilər üçün aşağıdakı yardım vasitələri nəzərdə tutulmalıdır:**



**Səsvermədə iştirak etməni nümayiş etdirən poster -** kar, eşitmə qabiliyyətindən məhrum olan və görmə qabiliyyətindən məhrum olan seçicilər üçün nəzərə çarpan yerdə asılmalıdır.

**Səs vermə kabinası -** uyğunlaşdırılmış / əlçatan seçki məntəqəsində təkərli kürsündən istifadə edən seçicinin istifadə edə biləcəyi kabina yerləşdirilməlidir. Kabinaya stikerlər vurulmaldır.





**Böyüdücü linza –** zəif görən şəxslər üçün seçicilərin qeydiyyatçısı komissiya üzvünün masasında iki ədəd böyüdücü linza olmalıdır.



**Seçki bülletenini dolduran çərçivə/forma –** görmə qabiliyyətindən məhrum olan şəxslər üçün seçicilərin qeydiyyatçısı komissiya üzvünün masasında çərçivə/forma olmalıdır.

## SƏSVERMƏ OTAĞINDA MİM OLAN SEÇICILƏR ÜÇÜN MƏXSUS OLAN KÖMƏKÇI VASITƏLƏRIN OLUB-OLMADIĞINI KIM YOXLAMALIDIR?

Məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini təşkil edərkən aşağıdakıları nəzərə almalıdır:

- ✔ Seçicilərin iştirakını əks etdirən poster səsvermə binasında nəzərə çarpan yerdə nümayiş etdirilməlidir;
- ✔ Uyğunlaşdırılan/əlçatan seçki məntəqəsində, səsvermə otağında təkərli kürsüdən istifadə edən seçicinin istifadə edilə bilməsi üçün səsvermə kabinəsi olmalıdır. Kabinədə stiker vurulmalıdır;
- ✔ MİM seçicilər üçün qeydiyyat masasından səsvermə kabinəsinə, daha sonra seçki qutusuna qədər hərəkət etməsi asan olmalıdır;
- ✔ Seçki qutusu elə yerləşdirilməlidir ki, MİM olan seçicilər xüsusi elektron səs sayma aparatı vasitəsilə müstəqil olaraq seçki bülleteni əsas qutulardan birinə yerləşdirə bilsinlər.

Məntəqə seçki komissiyasının sədri səsvermə günü səsvermə başlamazdan əvvəl qeydiyyatçı komissiya üzvünün masasında iki ədə böyüdücü linzanın və seçki bülletenini doldurmaq üçün çərçivə/formanın olmasına əmin olmalıdır.

# MİM olan seçicilərin seçkilərində iştirak etmə proseduru

## AXINI TƏNZIMLƏYƏN KOMISSIYA ÜZVÜ MİM OLAN SEÇIÇIYƏ NECƏ XIDMƏT ETMƏLIDIR?

✔ Əgər kar və ya eşitmə qabiliyyətindən məhrum olan seçici seçki məntəqəsində müşayiət edən şəxs olmadan iştirak edirsə, onunla yazılı şəklində əlaqə saxlayın və səsvermədə iştirak etməni nümayiş etdirən posterlə tanış olmasını göstəriş verin. Seçiciyə səsvermədə iştirakı əks etdirən plakatda QR oxuyucu əlavə olunduğunu izah edin, onu skan etdikdə səsvermə prosedurları ilə audio formatda tanış olmaq mümkündür;



✔ Ayrıca ona, MSK-nın əlaqə-mərkəzinə video zəng etmək və MSK-nın veb saytı vasitəsi ilə jest dilini bilən operatorun xidmətlərindən istifadə etmək fürsəti olduğunu təklif edə bilərsiniz. Xidməti almaq üçün MSK-nın veb saytında (www.cesko.ge) qeydiyyatdan keçmək və internetə daxil olmaq lazımdır.

✔ Yuxarı əzələləri (hər iki əzələsi) olmayan seçiciyə işarələnmə prosedurunu etməyin. Yuxarı əzələləri olmayan seçici səsvermədə müstəqil və yaxud digər şəxsin köməyi ilə iştirak edir.

## SEÇICILƏRIN QEYDIYYATÇISI KOMISSIYA ÜZVÜ MİM OLAN SEÇICIYƏ NECƏ XIDMƏT GÖSTƏRMƏLIDIR?

✔ Görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə verbal olaraq, sizin tərəfinizdən həyata keçiriləsi prosedurları izah edin;

✔ Qeydiyyatdan keçdikdən sonra, görmə qabiliyyətindən məhrum olan seçiciyə seçki bülletenində olan seçki subyektlərinin sıra nömrəsi barəsində məlumat verin;

✔ Görmə qabiliyyətindən məhrum olan zəif görən seçiciyə səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə/formanın istifadə edilməsi və seçki bülleteninin doldurulması qaydasını izah edin. Seçki bülletenini bülleteni doldurmaq üçün çərçivəyə/formaya yerləşdirin və seçiciyə eyni seçki bülletenində xüsusi ayrılmış yerdə test dairəsini rəngləndin;



✔ Görmə qabiliyyətindən məhrum olan seçiciyə verbal olaraq izah edin və əl ilə toxunaraq verifikasiyanı təsdiq edən qəbzdə imza yerini göstərin;

✔ Seçki bülletenini dolduran çərçivə/formada mövcud olan hər bir kəsik dairə bülletendə olan seçki subyektlərinin sıra nömrələrinin qarşısında olan dairəyə uyğun olmalıdır.

- ✔ Zəyif görən seçiciyə böyüdücü linza təklif edin və ona istifadə etmə qaydasını izah edin.



- ✔ Kar və eşitmə qabiliyyətindən məhrum olan seçiciyə sizin tərəfindən həyata keçirilən prosedurları addım-addım yazın. Məsələn, “xahiş edirəm, şəxsiyyət vəsiqəsini verəsiz”, “səsvermə kabinəsinə gedin” yazın.
- ✔ Yuxarı əzələləri (hər iki əzələsi) olmayan seçici işarələnmə prosedurunu keçirmir; Seçiciyə seçki bülletenini verərkən seçicinin verifikasiyasını təsdiq edən qəbzdə “fiziki vəziyyət” qeydini edin və imzanız ilə təsdiqləyin;
- ✔ Yuxarı əzələləri olmayan seçiciyə onun tərəfindən seçilən şəxs, səsvermə kabinəsində bülletenin doldurulmasına kömək edir. Həmçinin onun iştirakı ilə seçki bülleteni xüsusi çərçivə-zərfin vasitəsilə əsas seçki qutuya quraşdırılmış aparata yerləşdirir.

- ✔ Dəstək alan şəxsə səsvermə prosesində dəstəyi verən şəxs kömək edə bilər.

Nəzərə alınasıdır ki, seçki bülleteni doldurularkən başqa şəxsin iştirakı qadağandır. Seçki bülletenini müstəqil doldura bilməyən seçicinin aşağıdakılar istisna olmaqla, istənilən şəxsi gizli səsvermə kabinəsinə dəvət etmək hüququ vardır:

- ✔ seçki komissiyasının üzvü;
- ✔ namizəd;
- ✔ seçki subyektinin nümayəndəsi;
- ✔ müşahidəçi;
- ✔ mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi.

## XÜSUSI ELEKTRON SƏS SAYMA APARATININ VƏ SEÇKI QUTUSUNUN MÜŞAHIDƏÇI KOMISSIYASININ ÜZVÜ MİM OLAN SEÇICIYƏ NECƏ XIDMƏT ETMƏLIDIR?

- ✔ Seçiciyə izah edin ki, seçki bülleteni xüsusi çərçivə zərfin vasitəsi ilə əsas seçki qutusunda quraşdırılmış aparata elə yerləşdirilməlidir ki, bülleteninin ön tərəfi aşağı tərəfdə olsun. Əgər seçici kar və ya eşitmə qabiliyyətindən məhrumdursa, addım-addım həyata keçiriləcək prosedurları yazılı şəkildə izah edin:
- ✔ Seçki bülleteni aparat vasitəsilə seçki qutusuna qoyulduqdan sonra seçiciyə səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfi stolun üzərinə qoyması və seçki məntəqəsini tərk etməsi barədə izah edin və ya kağıza yazın.

Nəzərə alınasıdır ki, fiziki vəziyyəti (yuxarı əzələləri olmayan) olan görmə qabiliyyətindən məhrum olan və dəstək alan seçicinin əvəzinə onun iştirakı ilə seçki bülleteni xüsusi çərçivə zərf vasitəsilə xüsusi səs sayma aparatına onun tərəfindən seçilmiş, səsvermə kabinəsində seçki bülleteni doldurmağa kömək edəcək seçici yerləşdirilə bilər.

# MİM olan seçicilərlə danışıq və davranış etikası

## GÖRMƏ QABILIYYƏTINDƏN MƏHRUM OLAN VƏ ZƏIF GÖRƏN SEÇICI

- ✔ Seçki məntəqəsində görmə qabiliyyətindən məhrum olan və zəif görən seçiciyə rast gəldiyiniz zaman mütləq özünüzü təqdim edin. "Salam, mən Nino/Giorgiyəm" deyin;
- ✔ Sakit tonda danışın;
- ✔ Əgər əl vermək istəsəniz, ona bu barədə bildirin və yaxud onun kürəyinə toxunun ki, görmə qabiliyyətindən məhrum olan şəxs asanlıqla əl sıxa bilsin. Deyin "sizə əl vermək olarmı?";
- ✔ Olduğunuz yeri qısaca təsvir edin. Məsələn, "salonun mərkəzində, sizdən təxminən 8 addım məsafədə qeydiyyatçı komissiya üzvünün masası dayanır";
- ✔ Əgər görmə qabiliyyətindən məhrum olan seçici müşaiyət edən itlə (bələdçi it) birlikdədirsə, itlə oynamayın;
- ✔ Görmə qabiliyyətindən məhrum olan seçicidən əlçubuğunu götürməyin. Bu onun oriyentasiya alətidir;
- ✔ Maneələr haqqında məlumat verin (mövcud olduğu təqdirdə). Məsələn: astana, pilləkən və s. Həm də istiqaməti izah edərkən"sizdən sağda, solda, aşağıda" sözlərindən istifadə edin.
- ✔ Görmə qabiliyyətindən məhrum olan seçicidən hərəkət etməsi üçünköməyə ehtiyacı olub olmadığını soruşun; Razılığı olduğu təqdirdə, yardım üçün məntəqə seçki komissiyasının sədrinə müraciət edin;
- ✔ Komissiyanın sədri və ya onun tapşırığı ilə komissiya üzvlərindən biri görmə qabiliyyətindən məhrum olan və ya zəif görən seçicidən onun hərəkətinə kömək etmək üçün icazə alır. Müsbət cavab olduqda, komissiyanın sədri və ya komissiya üzvlərindən biri seçicinin yanında dayanır, görmə qabiliyyətindən məhrum olan və ya zəif görən şəxsdən təhlükəsiz istiqamətləndirmək üçün onun qolundan tutmasını xahiş edir, bundan sonra o, onun hər bir həyata keçirəcəyi proseduru izah edir və onu qeydiyyat masasına ötürür.

## FIZIKI POZUNTUSU OLAN SEÇICI ILƏ

- ✔ Təkərli kürsə soruşmadan toxunmayın, həmçinin ona söykənmək də qadağandır;
- ✔ Təkərli kürsü özbaşına gəzdirməyin, bunun üçün icazə alın. Əgər razılıq alsanız, yavaşca hərəkət etməyə başlayın, çünki təkərli kürsü sürətli hərəkət edir;
- ✔ Fiziki pozuntusu olan seçiciyə kömək etməzdən əvvəl mütləq, köməyinizə ehtiyacı olub olmadığını soruşun: "Sizə kömək edə bilərəmmi?" və ya "Sizə necə kömək edə bilərəm?" Məsələn, ağır bir qapı açarkən və ya bir az yüksəlmiş astananı keçərkən.

## DƏSTƏK ALAN ŞƏXSLƏ

- ✔ "Uşaq dilində" danışmayın, onunla uşaq kimi davranmayın. Digər yetkin insanlar kimi davranın;
- ✔ Düşünməyin ki, sizi başa düşməyir;
- ✔ Qısa və sadə cümlələrlə aydın dildə danışın;
- ✔ Səsvermə prosedurunu bilmirsə, səsvermədə iştirak etməni nümayiş etdirən posteri göstərin;
- ✔ Söhbəti sürətləndirməyə çalışmayın. Hazırlıqlı olun ki, danışıq çətinliyi olan şəxslə ünsiyyət qurarkən nisbətən daha çox müddət lazım gələ bilər;
- ✔ Nəzərə alın ki, nitqin pozuntusu avtomatik olaraq, intelektual pozuntusunun göstəricisi deyil;
- ✔ Dəstək alan şəxs səsvermədə necə müstəqil, eləcə də dəstəkçinin (başqa şəxsin) köməyi ilə iştirak edə bilər.

## KAR VƏ YA EŞITMƏ QABILIYYƏTINDƏN MƏHRUM OLAN SEÇICI ILƏ

- ✔ Kar və ya eşitmə qabiliyyətindən məhrum olan seçici ilə söhbət edərkən birbaşa ona baxın. Eşitmə pozğunluğunun müxtəlif növləri və dərəcələri var, bu səbəbdən də, ünsiyyətin bir çox vasitəsi var;
- ✔ Əgər şifahi ünsiyyətdə çətinlik çəksəniz, söhbət edənin icazəsi ilə yazılı ünsiyyətə müraciət edin. Sizin funksiyanıza daxil olan bütün prosedurları yazın. Məsələn, yazın ki,: "Xahiş edirəm, mənə şəxsiyyətinizi təsdiq edən sənədi verin";
- ✔ Əgər kar və ya eşitmə qabiliyyətindən məhrum olan seçici səsvermə binasına jest dili bilən müşaiyət edən şəxslə birlikdə gəldikdə o, səsvermə prosesindən onun köməyi ilə keçəcəkdir; Müşayiət edən şəxsə birbaşa müraciət etməyin, söhbət zamanı vaxtaşırı ona baxa bilərsiniz. Seçici ilə xeyirxah əlaqə qurmaq vacibdir.